**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2021-ci il üçün xərclər smetasının 314000 – “Qeyri-maddi aktivlər” köməkçi bölməsi üzrə proqram təminatlarının satın alınması ilə əlaqədar**

***AÇIQ TENDERƏ DƏVƏT EDİR***

Tender 2 lot üzrə keçirilir.

**Tenderin predmeti:**

**Lot 1.** Rəsmi statistika hesabatları və digər statistik məsələlər üzrə proqram təminatlarının hazırlanması işlərinin satın alınması.
**Lot 2.** Mövcud server avadanlıqlarının virtual mühitində domen tipli infrastrukturunun və monitorinq proqram təminatının qurulması, sazlanması işlərinin satın alınması.

Tenderdə “Dövlət satınalınmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (bundan sonra - Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lotlar üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər (əlaqələndirici şəxs Şahin Sadıqlı, telefon: (012) 377-10-70, daxili 22-64).

**İştirak haqqı:**
**Lot 1 :** 400 AZN
**Lot 2 :** 50 AZN

İştirak haqqının ödənilməsi yalnız “Asan Ödəniş” sistemi vasitəsilə həyata keçirilə bilər. Portalda müvafiq müsabiqə bölməsinə daxil olduqdan sonra “İştirak haqqı” bölməsində “Asan Ödəniş”lə ödə” düyməsini sıxaraq aidiyyatı keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edilə bilər.

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

| | |
|---|---|
| Adı: | Dövlət Statistika Komitəsi |
| Hesab №-si | AZ59CTRE00000000000002238401 |
| VÖEN: | 1300189411 |
| Benefisar (alan) bank: | Dövlət Xəzinədarlıq Agentliyi |
| Kodu: | 210005 |
| VÖEN: | 1401555071 |
| Müxbir hesab: | AZ41NABZ01360100000000003944 |
| SWİFT BİK: | CTREAZ22 |

| | |
|---|---|
| XHK | 2238401(002353) |
| Büdcə təsnifatının kodu | 142330 |
| Büdcə səviyyəsinin kodu | 7 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının ixtisasına dair məlumatlar (sertifikatlar, “Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi” fəaliyyət növü üzrə müvafiq lisenziya (1-ci lot üzrə), analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları, işlərin yerinə yetirilməsinə rəhbərlik edəcək işçinin ixtisası və təcrübəsi və s.);
- işlərin keyfiyyətinə dair zəmanət.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində tərcümələri notariat qaydasında təsdiq olunmalıdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün iddiaçının potensial imkanları (işlərin icra müddəti, peşəkar kadr heyətinin mövcudluğu və s.), analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları, işlərin yerinə yetirilməsinə rəhbərlik edəcək işçinin ixtisası və təcrübəsi haqqında məlumat və s.

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2021-ci il 29 mart saat 10:00-a qədər, tender təklifi və bank zəmanətini isə 2021-ci il 6 aprel saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklif zərfləri 2021-ci il aprel ayının 7-si saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

**Tender komissiyası**